# ELMİ TƏDQİQATLARIN İNFORMASİYA TƏMİNATI

## KİTABXANAŞÜNASLIQ. BİBLİOQRAFİYAŞÜNASLIQ. KİTABŞÜNASLIQ.

**UOT: 02**

***Aybəniz Əliyeva-Kəngərli,***
*filologiya üzrə elmlər doktoru,*

*aybeniz.kengerli@gmail.com*

***Natiq Mürsəlov,***
*AMEA-nın Məhəmməd Füzuli adına*
*Əlyazmalar İnstitutu, doktorant*
*natiq.doktorant@mail.ru*

### AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADRMİYASI MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTUNUN ELMİ İNFORMASİYA FƏLİYYƏTİ MÜASİR MƏRHƏLƏDƏ

**Açar sözlər:** *əlyazma, kitabxana xidməti, biblioqrafik arayış, oxucu, informasiya resursları.*

**Key words:** *manuscripts, library services, bibliographic reference, the reader, information resources.*

**Ключевые слова:** *рукопись, библиотечное обслуживание, библиографическая справка, читатель, информационные ресурсы.*

Hazırda demokratik və suveren ölkəmizin dinamik inkişafının fəal iştirakçı olan sağlam əqidəli, zəngin mənəviyyatlı və yüksək intellektual səviyyəli insanların yetişdirilməsində Azərbaycan xalqının fəlsəfi və sosioloji, epik və estetik, tənqid və pedaqoji, elmi, dini və mifoloji fikrinin obrazlı vəhdəti və üzvi sintezdə ifadəsi kimi formalaşmış və ensiklopedik mahiyyət daşıyan mədəni, mənəvi və intellektual xəzinəsi olan əlyazmalar fondunun xüsusi rolu vardır.

Xalqımızın milli sərvəti, mənəvi-bədii və fəlsəfi-elmi nailiyyəti və fəxri olan bu fondda Azərbaycan ədəbi və elmi-ictimai fikrinin günümüzədək gəlib çatmış maddi nümunələri – türkdilli, farsdilli, ərəbdilli əlyazmalar, daşbasma kitablar, tarixi-arxeoqrafik sənədlər və şəxsi arxivləri mühafizə olunur. Bu sərvət xalqımızın bütün varlığı, həyat və məişəti, mübarizə və qələbələri, öz tarixinə, dilinə, mədəniyyətinə, adət və ənənələrinə məhəbbəti əks etdirməklə eyni zamanda, Azərbaycan tarixinin önəmli hadisələrini əks etdirən, tarixi şəxsiyyətlərimiz haqqında dolğun və mötəbər məlumat verən, bununla da özündə geniş informasiya məkanı formalaşdırmış elmi-tarixi əhəmiyyətli mühüm mənbədir.

Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun (bundan sonra - İnstitut) fondunda saxlanılan qiymətli materiallar milli və ümumbəşəri mənəvi irsimizin tədqiqində və təbliğində çox mühüm əhəmiyyət kəsb edir.

Dünya elmşünaslığı və elm tarixi göstərir ki, hər bir ölkədə elmin inkişafı, elmi tədqiqatların səmərəli təşkili və onların nəticələrinin cəmiyyətin sosial-iqtisadi və mədəni-mənəvi həyatına tətbiqi əsaslı dərəcədə bu mürəkkəb proseslərin elmi informasiya fəaliyyətindən asılıdır. Bu da öz növbəsində elmi-tədqiqat müəssisələrində bu istiqamətdə fəaliyyətin daha səmərəli və düzgün təşkilini tələb edir.

Elmi informasiya fəaliyyəti alim və mütəxəssislərin informasiyaya olan tələbatının təmin edilməsi üzrə kitabxana fəaliyyətinin (kitabxana əməyinin faydalı effekti) nəticəsi olan kitabxana-biblioqrafiya və informasiya xidmətidir.

Beləliklə, İnstitutun fondunda qorunan əlyazmaların, daşbasma kitablarının, tarixi-arxeoqrafik sənədlərin, şəxsi arxivlərin və ümumilikdə mətnşünaslıq və mənbəşünaslıq üzrə kitabxana-biblioqrafiya və informasiya xidmətinin tarixi və müasir vəziyyətinin təhlili bu araşdırmanın əsas obyektini təşkil edir. Bu xidməti idraki və intellektual fəaliyyətə aid etmək olar: həm kitabxanaçı, həm də oxucu mövzu ilə işləyir, informasiya və bilik axtarır, seçir, təhlil edir, ümumiləşdirir, xülasə edir, yaradırlar.

Cəmiyyətdə bədii-ədəbi, fəlsəfi-tarixi və elmi əsərlərin təbliğinə, oxucuların bu sahələrdə mütaliə mədəniyyətinin formalaşmasında və elmi-tədqiqatların sənəd-informasiya təminatında İnstitutun kitabxana-biblioqrafiya və elmi informasiya xidməti üzrə fəaliyyətinin mühüm rolu və yeri vardır.

Bu il yaranmasının 67 ili tamam olan İnstitut tarixən enişli-yoxuşlu bir inkişaf dövrü keçmiş və yalnız Azərbaycan ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra özünün inkişafının ən yüksək pilləsinə qədəm qoymuşdur. Bu dövrdə bünövrəsi ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil və çağdaş Azərbaycan Respublikası inkişaf etdikcə milli-mənəvi dəyərlərimizə, tarixi keçmişimizə, yazılı abidələrimizə, onların tədqiqi, nəşri və təbliğinə diqqətin get-gedə artması danılmaz faktdır.

Müstəqillik illərində dövlətimiz, xalqımız, alimlərimiz, ziyalılarımız qarşısında duran ən mühüm vəzifələrdən biri – Azərbaycan cəmiyyətinin informasiyalaşdırılmasıdır ki, bu istiqamətdə də AMEA-nın fəaliyyəti çox böyük əhəmiyyət kəsb edir. Onun əsas tərkib hissələrindən biri kimi İnstitut müstəqillik dövründə xüsusilə də, son illərdə dövlət əhəmiyyətli bu prioritet məsələnin uğurla həyata keçirilməsinə və qarşıya qoyulan mühüm tələblərin icrasına başlamışdır.

Bu gün qürur hissi ilə deyə bilərik ki, XX əsrin 50-ci illərindən etibarən İnstitutda kitabxana-biblioqrafiya və elmi informasiya xidməti üzrə fəaliyyətin ilk rüşeymləri kimi formalaşmağa başlamış mətnşünaslıq və mənbəşünaslıq sahələrinin biblioqrafik vəsaitlər sistemi Azərbaycan milli biblioqrafiyasının informasiya potensialının ən mühüm tərkib hissələrindən birini təşkil etməklə ölkəmizdə kitabxana-biblioqrafiya işinin inkişafına öz layiqli töhfəsini vermişdir.

Fondunun profilinə uyğun materialların axtarılması, toplanması, sistemləşdirilməsi, kataloqlaşdırılması, qorunması, tədqiqi, nəşrə hazırlanması və təbliği sahəsində fəaliyyət göstərən İnstitut 1950-1960-cı illərdən etibarən şəxsi arxivlərin elmi təsvirinə başlamışdır. 1955-ci ildə İnstitutda A. İbrahimovun hazırladığı "Mirzə Fətəli Axundov arxivinin təsviri"nin nəşr edilməsi ilə biblioqrafiyalaşdırma prosesinin əsası qoyulmuş, 1961 və 1965-ci illərdə Mərziyə Paşayevanın "Cəlil Məmmədquluzadə arxivinin təsviri" və "Cəfər Cabbarlı arxivinin təsviri", 1962-ci ildə isə Cənnət Nağıyevanın

"Süleyman Sani Axundov arxivinin təsviri" kitabları nəşr olunmaqla bu istiqamətdə fəaliyyət uğurla davam etdirilmişdir [7].

60-cı illərdən başlayaraq isə burada kitabxana-biblioqrafiya və elmi informasiya xidmətində mühüm rolu olan əlyazmaların kataloqlaşdırılması təcrübəsi həyata keçirilmiş, İnstitutun ilk "Əlyazmalar kataloqu" M. Sultanovun və C. Qəhrəmanovun redaktəsi altında 1963-cü və 1977-ci illərdə (iki cilddə) nəşr edilmiş, bundan sonra əlyazmaların kataloqlaşdırılması işinə daha böyük əhəmiyyət verilmiş və bir sıra yeni kataloqlar tərtib edilmişdir.

70-80-ci illərdə Azərbaycan əlyazmalarının mühafizəsi, tədqiqi və nəşri sahəsində öz töhfələrini vermiş M.Sultanov, C.Qəhrəmanov, Ə.Məmmədov, C.Nağıyeva, F.Seyidov, M.Paşayeva, Ş.Cəmşidov, N.Qarayev, M.Məmmədova, E.Seyidbəyli kimi görkəmli alim və təcrübəli mütəxəssislər kitabxana-biblioqrafiya və elmi informasiya xidməti üzrə elmi-tədqiqat işlərini uğurla davam etdirmişlər.

Müstəqillik dövründə 1991-2000-ci illərdə İnstitutda əlyazmaların kataloqlaşdırılması və arxiv materiallarının biblioqrafik göstəricilərinin nəşri sahəsində xeyli müsbət irəliləyiş olmuşdur. Burada ərəbdilli əlyazmaların kataloqunun üç cildi, farsdilli əlyazmaların kataloqunun üç, türkdilli əlyazmaların kataloqunun iki cildi, Məhəmməd Füzulinin biblioqrafiyası, Xacə Nəsirəddin Tusinin biblioqrafiyası, "Kitabi-Dədə Qorqud"un biblioqrafiyası, Qarabağın biblioqrafiyası, "Füyuzat" jurnalının biblioqrafiyası, həmçinin C.Nağıyevanın "Yusif Vəzir Çəmənzəminli arxivinin təsviri" və M.Məmmədovanın "Müslüm Maqomayev arxivinin təsviri", eləcə də M.Adilovun "Firudin bəy Köçərlinin şəxsi arxivi" kitabları nəşr edilmişdir [7].

Hazırda İnstitutda özünün yüksək inkişaf mərhələsində olan kitabxana-biblioqrafiya və elmi informasiya xidməti sahəsində fəaliyyət müvafiq elm sahələrində mövcud sənədlər və informasiya tələbatçıları arasında uyğunluq yaratmaqda və sənəd kommunikasiya sistemində informasiya maneələrinin aradan qaldırılmasında səmərəli vasitədir. Bu vasitə insanlarda cəmiyyətin ideyallarına uyğun sağlam şüurlu və estetik zövqə əsaslanan mənəvi tələbat oyadır ki, bu tələbatın təminatına xidmət etməklə ölkəmizdə kitabxana işinin inkişafına öz layiqli töhfəsini verir.

Müasir şəraitdə İnstitutun kitabxana-biblioqrafiya və elmi informasiya xidmətinin müasir informasiya texnologiyalarına əsaslanaraq yeniləşməsi, onun elmi, sosial və kommunikativ funksiyasının təkmilləşməsi, struktur quruluşu, biblioqrafiyalaşdırma prosesində nəşr növlərinin zənginləşməsi və nəzəri-metodiki əsaslarının güclənməsi zəruri məsələlərdən biridir.

Son 2005-2015-ci illərdə ölkəmizdə mətnşünaslıq və mənbəşünaslıq üzrə kitabxana-biblioqrafiya və elmi informasiya xidməti, eləcə də bu elm sahələrində sənəd kütləsinin biblioqrafiyalaşdırılması prosesi getdikcə təkmilləşmiş, mətnşünaslıq və mənbəşünaslığın mühüm infrastrukturu və ayrılmaz tərkib hissəsi kimi onların dinamik inkişafına səmərəli təsir göstərən zəngin sənəd-informasiya bazasına çevrilmişdir. Bu baxımdan Azərbaycanda mətnşünaslıq və mənbəşünaslıq üzrə kitabxana-biblioqrafiya və elmi informasiya xidmətinin tarixi, təcrübəsi və nailiyyətlərinin öyrənilməsi və ümumiləşdirilməsi, bu mürəkkəb prosesin müasir kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq elmlərinin tələbləri səviyyəsində strategiyasının müəyyənləşdirilməsində mühüm nəzəri və təcrübi əhəmiyyət kəsb edir.

Hazırda İnstitutda *"Azərbaycan ədəbi və elmi-ictimai fikrinin bizə gəlib çatmış maddi nümunələrinin (türkdilli, farsdilli, ərəbdilli əlyazmaların, daşbasma kitablarının, tarixi-arxeoqrafik sənədlərin, şəxsi arxivlərin) toplanması, sistemə salınması, kataloqlaşdırılması, qorunması, tədqiqi, nəşrə hazırlanması və təbliği"* elmi

istiqamətində aşağıdakı problemlər üzərində elmi-tədqiqat və təşkilati işlər həyata keçirilir:

1. *"Mətnşünaslıq, elmi-tənqidi mətnlərin tərtibi, ilkin mənbələrin tədqiqi və nəşri";*
2. *"Mənbəşünaslıq, tarixi mənbələrin tədqiqi və nəşri";*
3. *"Yazılı materialların dezinfeksiya və konservasiyası. Stasionar və səyyar sərgilərin təşkili"*;
4. *"Kitabşünaslığın, biblioqrafiyaşünaslığın, kitabxanaşünaslığın nəzəri və təcrübi məsələlərinin təşkili və tədqiqi".*

Müasir mərhələdə bu elmi-tədqiqatlar və təşkilati işləri həyata keçirən alim və mütəxəssislərə göstərilən kitabxana-biblioqrafiya və elmi informasiya xidmətinin yeni mərhələsi başlanmış, müsbət nəticələr əldə edilmişdir. Belə ki, İnstitutda kitabxana-biblioqrafiya və elmi informasiya xidmətinin optimallaaşdırılması və iş proseslərinin avtomatlaşdırılması məqsədilə 2014-cü ildən kompüter texnologiyalarının geniş tətbiqinə başlanılmış, müasir iş üsullarının tətbiqi, kadr potensialının yüksəldilməsi həyata keçirilir.

Bu gün İnstitutda kitabxana-biblioqrafiya və elmi informasiya xidməti üzrə fəaliyyət bir neçə istiqamətdə həyata keçirilir: *sənəd-informasiya fondlarının çap və elektron nəşrlərlə komplektləşdirilməsi; elmi informasiya və soraq-biblioqrafiya xidməti*; *müxtəlif mövzularda biblioqrafik vəsaitlərin tərtibi və nəşri; soraq-biblioqrafiya aparatının təkmilləşdirilməsi; yüksəkixtisaslı kadrların hazırlanması*; *kitabxana-biblioqrafiya biliklərinin təbliği* və s. Bu sahədə həyata keçirilən elmi-tədqiqat və təşkilati işlər nəticəsində müxtəlif kitablar, retrospektiv və mövzu biblioqrafik vəsaitlər, şəxsi biobiblioqrafik göstəricilər, çap kataloqları, şəxsi arxivlərin təsviri və s. hazırlanır, yazılı biblioqrafik arayışlar tərtib edilir, şifahi arayışlar verilir və bununla alim və mütəxəssislərin daim artan kitabxana-biblioqrafiya və elmi informasiya tələbatı ödənilir, onlar müxtəlif elmi xarakterli informasiya ilə təmin olunur.

Bildiyimiz kimi, kitabxanaların və elmi-təqdiqat müəssisələrinin tipinə və profilinə görə müxtəlif olmaları burada kitabxana-informasiya sistemi üzrə fəaliyyətin təşkilinin də müxtəlif istiqamətlərdə aparılmasına gətirib çıxarır. Lakin bütün tip kitabxanalarda və elmi-tədqiqat müəssisələrində olduğu kimi İnstitutda da bu sistemin əsas tərkibi olan kitabxana-biblioqrafiya fəaliyyəti əsasən: *fondların soraq-biblioqrafiya aparatının (SBA) təşkili; müxtəlif məqsəd və oxucu istiqamətli biblioqrafik vəsaitlərin tərtibi; biblioqrafik informasiya xidməti; soraq-biblioqrafiya xidməti; tövsiyə biblioqrafiya xidməti; metodiki iş və məsləhətlər; biblioqrafik biliklərin təbliği; biblioqrafik fəaliyyət sahəsində həyata keçirilən elmi-tədqiqatlar* istiqamətlərində aparılır [2, 65 ].

Burada fəaliyyət göstərən bütün şöbələrdə elmi informasiya fəaliyyəti təşkil olunsa da sırf bu istiqamətdə fəaliyyətlə məşğul olan 3 şöbə vardır:

1. *Kitabşünaslıq və biblioqrafiya şöbəsi;*
2. *Kitabxana və elmi informasiya şöbəsi;*
3. *Elektron resurslar şöbəsi.*

Həmin şöbələr İnstitutun alim və mütəxəssisləri üçün həyata keçirilən kitaxana-biblioqrafiya və elmi informasiya xidmətinin təkmilləşdirilməsi məqsədilə 2014-cü ildə burada aparılmış struktur islahatları çərçivəsində təşkil olunmuşdur. Şöbələrin elmi və təşkilati fəaliyyəti Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Prezident Administrasiyası rəhbərinin, Nazirlər Kabinetinin, AMEA Rəyasət Heyəti və Humanitar Elmlər Bölməsinin qərar və sərəncamlarının və illik plana müvafiq *"Kitabşünaslığın, biblioqrafiyaşünaslığın və kitabxanaşünaslığın nəzəri*

*və təcrübi məsələlərinin təşkili və tədqiqi"* problemi üzrə elmi-tədqiqat işlərinin icrasına yönəlmişdir.

*"Kitabşünaslıq və biblioqrafiya"* şöbəsi kitab, kitab işi və biblioqrafiyaşünaslığın nəzəri və təcrübi məsələlərinin tədqiqi, şəxsi biobiblioqrafik göstəricilərin və mövzu biblioqrafik vəsaitlərin tərtibi ilə məşğul olur. İnstitutun müvafiq şöbələri tərəfindən hazırlanan biblioqrafik vəsaitlərin, çap kataloqları və şəxsi arxivlərin elmi redaktəsi və müvafiq dövlət standartlarına uyğun hazırlanmasına nəzarət edir.

İnstitutun *"Kitabxana və elmi informasiya"* şöbəsi müəssisənin sənəd-informasiya fondunun müasir çap və elektron ədəbiyyatla zənginləşdirilməsini, yeni daxil olan ədəbiyyatın kataloqlaşdırılmasını, dövlət təşkilatlarına, müxtəlif elmi idarələrə, alim və mütəxəssislərə kitabxana-biblioqrafiya və elmi informasiya xidmətini həyata keçirir. Şöbə yazılı mövzu biblioqrafik arayışlar tərtib edir, oxuculara şifahi arayışlar verir.

Şöbənin illik planına əsasən *"Kitabxana-informasiya xidmətinin təşkili"* mövzusuna uyğun olaraq İnstitutda aparılan elmi tədqiqatların istiqamətlərinə uyğun müasir ədəbiyyat fondu hər il çap və elektron nəşrlərlə zənginləşdirilir.

İnstitutda alim və mütəxəssislərə kitabxana-biblioqrafiya xidmətinin yüksək səviyyədə həyata keçirilməsinin əsasını mükəmməl informasiya-axtarış aparatı təşkil edir. Belə ki, sənəd-informasiya fondunu məqsədyönlü və müxtəlif baxımdan dolğun və elmi cəhətdən açılmasını təmin edən, oxucuları maraqlandıran mövzular və elmi problemlər üzrə ədəbiyyatın seçilməsi işlərini reallaşdıran kitabxananın elmi əsaslarla qurulmuş kataloq və biblioqrafik kartotekalar sistemindən ibarət informasiya-axtarış aparatıdır.

Tipindən və fondundan asılı olmayaraq bütün kitabxanaların, o cümlədən İnstitutun da sənəd-informasiya fondunun soraq-biblioqrafiya aparatı 2 hissədən ibarətdir: *soraq və biblioqrafik nəşrlər fondu; kataloq və kartoteka sistemi.* Bu aparatda dünya xalqlarının 20-dən çox dilində nəşr edilmiş 500.000 artıq informasiya daşıyıcısı*: əlyazma, kitab, dövrü və nəşri davam edən ədəbiyyat, nadir və qiymətli nəşrlər, sovet dövrünə qədərki dövri nəşrlər, dissertasiya və avtoreferatlar, fotosurətlər, qəzetlər, görkəmli alimlərin şəxsi kolleksiyaları* və s. haqqında biblioqrafik məlumat əks olunmuşdur [6].

İnstitutda alim və mütəxəssislərə həyata keçirilən kitabxana-biblioqrafiya xidməti çoxcəhətli və olduqca rəngarəngdir. Bu ilk növbədə oxucu tərkibinin müxtəlifliyindən irəli gəlir. Ümumiyyətlə, burada elə bir kitabxana-informasiya sistemi yaradılmışdır ki, təhsil səviyyəsindən və ixtisasından asılı olmayaraq bütün oxucular ondan istifadə edə bilir. Alim və mütəxəssislərə kitabxana-biblioqrafiya xidməti göstərməzdən əvvəl onların sorğu və marağı hərtərəfli öyrənilir. Çünki, hər bir oxucunun mütaliəsini düzgün istiqamətləndirməkdə bu öyrənmə mühüm əhəmiyyət kəsb edir.

İnstitutda həyata keçirilən kitabxana-biblioqrafiya və elmi informasiya xidmətinin təhlili göstərir ki, mətnşünaslıq və mənbəşünaslıq üzrə sorğuların məqsədi olduqca müxtəlifdir: *elmi iş, mühazirəyə hazırlıq, şəxsi təhsil, tədris işi* və s.

İnformasiya tələbatçılarına göstərilən biblioqrafik xidmət İnstitutun kitabxana-biblioqrafiya xidməti istiqamətində fəaliyyətinin ayrılmaz tərkib hissəsidir və özündə *soraq-biblioqrafiya* və *biblioqrafik məlumat* xidmətlərini birləşdirir.

Soraq-biblioqrafiya xidməti məlumat tələbatçılarının birdəfəlik sorğusu əsasında olan biblioqrafik xidmətdir ki, oxucu-sorğu-cavab bu xidmətin əsas prosesidir. Birdəfəlik sorğunun və ona verilən cavabın mövcudluğu soraq-biblioqrafiya xidmətinin xarakterik və məcburi xüsusiyyətidir. Oxucu sorğularının yerinə yetirilməsi keyfiyyəti İnstitutun əlyazmalar, müasir çap əsərləri və elektron nəşrlər fondunun tamlığından,

müxtəlif fondları özündə əks etdirən soraq-biblioqrafiya aparatının təşkilindən, biblioqrafların ixtisas səviyyələrindən, onların fondların zəngin ədəbiyyat resursları ilə tanışlığından və bu istiqamətdə respublikanın digər yaxın profilli təşkilatlarının biblioqrafik işinin əlaqələndirilməsindən asılıdır.

İnstitutda bir sıra sorğulara biblioqraf mətnşünaslıq və mənbəşünaslıq üzrə soraq-biblioqrafiya aparatından istifadə erməklə operativ cavablandırır. Əgər arayış oxucunun iştirakı ilə yerinə yetirilirsə, bu halda o, biblioqrafik biliyinin artırılması məqsədilə biblioqrafik axtarışa cəlb olunur. Lakin elə sorğular da vardır ki, onların yerinə yetirilməsi zamanı biblioqrafik mənbələrə baxmaqla kifayətlənilmir, digər kitabxanalarla, elmi müəssisələrlə və mütəxəssislərlə məsləhətləşmələr aparılır.

Nəzəri baxımdan da məlumdur ki, oxucu sorğularına uyğun olaraq arayışların 2 növü var: *biblioqrafik* və *faktoqrafik.* Tələb olunan və verilən informasiyanın xarakterindən asılı olaraq biblioqrafik arayışlar da 3 növə ayrılır: *mövzu, dəqiqləşdirmə* və *ünvan (kitabxana-ünvan)* [3, s.101].

Yerinə yetirilmə formasına görə arayışlar şifahi və yazılı olur ki, İnstitutda bütün arayışların adətən 8-15%-ni yazılı arayışlar təşkil edir [6]. Belə arayışlar öz mürəkkəbliyinə görə seçilir və onların yerinə yetirilməsi xüsusi, əhatəli axtarış aparılmasını tələb edir.

Burada yerinə yetirilən mətnşünaslıq və mənbəşünaslıq arayışlarının böyük hissəsi mövzu arayışlarından ibarət olur. Həmin arayışlar verilən bütün arayışların 70-80%-ni əhatə edir [6]. Mövzu arayışlarının çoxu mətnşünaslıq, elmi-tənqidi mətnlərin tərtibi, mənbəşünaslıq, ilkin mənbələrin tədqiqi və nəşri, tarixi mənbələrin tədqiqi və nəşri sahələrinə aid olur. Mövzu arayışların yerinə yetirilməsi metodikası ümumi qaydalara əsaslanır: *sorğunun qəbulu; mənbələr dairəsinin müəyyənləşdirilməsi; ədəbiyyatın meydana çıxarılması, seçilməsi və qruplaşdırılması; arayışın tərtibi.*

Yerinə yetirilən arayışların digər qismini ünvan biblioqrafik arayışlar təşkil edir. Bu arayışlar oxucuya məlum olan sənədlərin və ya onun bir hissəsinin İnstututun fondlarında yerləşdiyi yeri müəyyən etməyə xidmət edir. Belə arayış biblioqrafik-ünvan axtarışı nəticəsində verilir. Biblioqrafik-ünvan arayışı biblioqrafik mənbələr əsasında (biblioqrafik göstəricilər, kataloqlar, kartotekalar və s.) oxucunun tələb etdiyi sənədin mövcudluğunu və ya müəyyən fondda (kitabxanada, arxivdə, elmi-texniki məlumt orqanında) dəqiq saxlanma ünvanını (şifrəsini) müəyyənləşdirmək məqsədilə yerinə yetirilən arayışdır [1, s. 103].

Kitabxana-biblioqrafiya və elmi informasiya xidmətinin istiqamətlərindən biri – ədəbiyyat fondlarının təbliğ edilməsidir ki, ədəbiyyat sərgilərinin təşkili və bu sahədə İnstitutda aparılan işlərin fəallaşdırılmasına ciddi diqqət yetirilir. Keçirilən sərgilər ictimai-siyasi və b. mühüm hadisələrə, elmi nailiyyətlərə, alim, şair və yazıçıların, görkəmli elm və mədəniyyət xadimlərinin yubileylərinə, beynəlxalq və respublika səviyyəli konfrans, simpozium, seminar və b. həsr olunur.

Bilindiyi kimi, informasiya və elmi biliklər elmi-texniki və sosial tərəqqinin mühüm amillərindən birinə çevrilmişdir və bu gün sivilizasiyanın inkişafında müəyyənedici rol oynayır. Qlobal informasiyalaşdırılmış cəmiyyətin planetimizdə formalaşması prosesi inkişaf edir, eyni zamanda, elmi-tədqiqat müsəssisələrinin kitabxanalarının missiyası dəyişir, oxuculara xidmətdə müəyyən informasiya fəzasının yaradılması tələb olunur. Elə buna görə də İnstitut və burada çalışan peşəkar mütəxəssislər müəssissənin kitabxanasını dünyada inkişaf etmiş ölkələrin kitabxanaları səviyyəsinə qaldırmasına səy göstərərək, müasir texnologiyaların tətbiq edildiyi informasiyalaşdırma mərhələsinə qədəm qoymuşlar.

Hazırda alimləri çoxsaylı informasiya nəşrlərindən, müxtəlif xarakter daşıyan avtomatlaşdırılmış məlumat bazalarından ilk növbədə xarici elmi jurnallara müraciət elmək imkanı maraqlandırır. İnternet şəbəkəsində bir neçə min aparıcı elmi jurnallar geniş yer tutmuşdur. Bu isə elmi tədqiqatlar üçün çox qiymətli elmi informasiyanı şəbəkə vasitəsilə əldə etmək imkanıdır.

Bu gün İnstitutda elmi informasiya xidməti müasir kompüter texnologiyalarının istifadəsi ilə – oxuculara «retro» rejimində müxtəlif parametrlərlə informasiya axtarışı aparılır, İnternet şəbəkəsinin elektron informasiya ehtiyatlarından istifadə edilir və əməkdaşlar tərəfindən hazırlanan çap məhsullarının: *kitab və monoqrafiyaların, biblioqrafik informasiya xidmətində ən mühüm vəsaitlərdən olan və oxucular tərəfindən geniş istifadə edilən retrospektiv, mövzu və şəxsi biblioqrafik göstəricilərin, çap kataloqlarının, şəxsi arxivlərin təsviri və s. yığımı və çapa hazırlanması* prosesləri yeni texnologiyaların tədbiqi vasitəsilə həyata keçirilir. Eyni zamanda, yazılı mövzu biblioqrafik arayışlar və ədəbiyyat siyahıları tərtib edilir.

İnstitutun "Elektron resurslar" şöbəsi fondlarda saxlanılan əlyazmaların və əski çap kitablarının müasir informasiya vasitələrinin tətbiqi ilə elektron kataloqunun, elektron kitabxanasının yaradılması işi ilə məşğul olaraq, rəqəmsallaşdırılmış əlyazmaları uzunmüddət saxlanması və istifadəsi üçün multimediya disklərinə köçürür. Burada müəssisənin rəsmi veb səhifəsi olan *"www.elyazmalarinstitutu.com"* saytının optimal kontentinin formalaşdırılması və onun aktuallığının qorunması təmin edilir.

Hazırda dünya informasiya sistemində İnstitutun sənəd-informasiya resurslarının təbliği, dövlətlərarası ədəbiyyat və informasiya mübadiləsinin dinamik inkişaf xüsusiyyətlərinin tədqiqi və həyata keçirilməsi, xarici ölkələrdə Azərbaycanın tarixi və mədəniyyəti ilə bağlı mənbələrin müəyyənləşdirilməsi, əldə edilməsi, tədqiqi və təbliği istiqamətində tədbirlər də genişləndirilir.

İnstitutda aparılan tədqiqatların istiqamətlərinə müvafiq yerli və xarici çap və müasir informasiya daşıyıcıları ilə fondların komplektləşdirilməsi və formalaşdırılması işinin davamlı şəkildə inkişafı, azərbaycanşünaslığı inkişaf etdirmək məqsədi ilə ölkəşünaslığa, diyarşünaslığa dair materiallarla fondların zənginləşdirilməsi, ölkəşünaslığa dair dünya kitabxanalarında saxlanılan ədəbiyyatın və əlyazmaların müəyyənləşdirilməsi, onların çatışmayan nüsxələrinin Azərbaycana gətirilməsi məqsədi ilə müvafiq layihələr həyata keçirilir, xarici və yerli elektron tammətnli məlumat bazaları əldə edilir.

Beləliklə, Azərbaycanda kitabxana işinin müasir inkişaf mərhələsində İnstitutda kitabxana-biblioqrafiya və elmi informasiya xidməti sahəsində aparılan elmi-tədqiqat işlərinin mövcud istiqamətlərinin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən məqsədyönlü tədbirlər, mətnşünaslıq və mənbəşünaslıq elmləri üzrə alim və mütəxəssisləri üçün nəzərdə tutulan kitabxana-informasiya sisteminin modernləşdirilməsini, beynəlxalq standartlar səviyyəsinə çatdırılmasını, inkişafını, eləcə də mətnşünaslıq və mənbəşünaslığın sənəd-informasiya potensialının optimallaşdırılmasını təmin edəcəkdir.

## Ədəbiyyat

1. Əliyev Z. Ümumi biblioqrafiyaşünaslıq: dərs vəsaiti.– Bakı, 2001.– 143 s.
2. Əliyeva-Kəngərli A. Milli-mənəvi dəyərlərimiz: yaradanlar və yaşadanlar.– Bakı: Proqres, 2012.– 582 s.

3. Əliyeva-Kəngərli A. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar.– Bakı: Elm, 2007.– 394 s.
4. İsmayılova S. 1965-1970-ci illərdə Azərbaycanda ədəbi-bədii biblioqrafik vəsaitlər sisteminin formalaşması// Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.– Bakı, 2007.– №1.– S. 101-109.
5. Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun 2005-2015-ci illər üzrə hesabatları.
6. www.elyazmalarinstitutu.com.

**Айбениз Алиева-Кенгерли,**
*доктор наук по филологии*
**Натиг Мурсалов,**
*докторант*

## НАУЧНО-ИНФОРМАЦИОННАЯ ДЕЯТЕЛЬНОСТЬ ИНСТИТУТА РУКОПИСЕЙ ИМЕНИ МУХАММЕДА ФИЗУЛИ НА СОВРЕМЕННОМ ЭТАПЕ

***Резюме***

В статье анализируется деятельность Института рукописей в сфере библиотечно-библиографического и научно-информационого обслуживания на современном этапе. Изучается информационно-поисковый аппарат, составляющий основу библиотечно-библиографического обслуживания ученых и специалистов, уровень которого зависит от качества материала, собранного в нем. Рассматриваются также особенности динамичного развития в Институте рукописей межгосударственного обмена как литературой, так и научной информацией.

**Aybeniz Aliyeva-Kangarli,**
*doctor of philology*

**Natig Mursalov**

## ACTIVITY OF SCIENTIFIC INFORMATION OF INSTITUTE OF MANUSCRIPTS NAMED AFTER MAHAMMAD FUZULI AT THE PRESENT STAGE

***Summary***

At the present stage in the development of the article, which is highly active in the field of library science and scientific information services are analyzed. Scientists and experts in library science as a basis for a high level of service, perfect information retrieval apparatus studied. The Institute's document and information resources information system in the world to promote the development of inter-state nature of the literature and an analysis of the dynamic exchange of information is given.
УДК 004.77:025.3–028.63:027.021(470+571)